# Milli Məclisdə görüşlər

Mayın 1-də Milli Məclisin deputatı, Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ziyad Səmədzadənin Belarus Parlamentinin Təhsil, mədəniyyət və elm komissiyasının sədri İgor Marzaliukun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, söhbət zamanı Azərbaycanla Belarus arasında mövcud dostluq əlaqələrindən, müxtəlif sahələrdə münasibətlərin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən bəhs edilib. Tərəflər ölkələrimiz arasında parlamentlər səviyyəsində əlaqələrin genişləndirilməsi, deputatların dostluq qrupları çərçivəsində, beynəlxalq parlament qurumlarında qarşılıqlı faydalı əməkdaşlığı ilə bağlı fikirlərini bölüşüblər.

Görüşdə Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yüksək səviyyədə təşkil edildiyi qeyd olunub. Forumda səmərəli müzakirələrin keçirildiyi bildirilib. Regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə səylərin önəmi vurğulanıb.



Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

❖ ❖ ❖

Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və komitə sədrinin müavini Asim Mollazadə Avstraliya Parlamentinin deputatı Riçard Ceyms Vilson ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, görüşdə qonağa Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüquqa uyğun bərpa etməsi, işğaldan azad edilmiş torpaqlarda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, hazırda sülh sazişi üzrə aparılan danışıqlar barədə məlumat verilib. Ermənistanla Azərbaycanın bu gün sülhə yaxın olduqları bildirilib. Lakin Qərb dairələrinin Azərbaycana qarşı böhtan xarakterli qarayaxma kampaniyaları aparmasının regionda sülhün möhkəmləndirilməsinə və iqtisadi əməkdaşlığın bərqərar olmasına ciddi ziyan vurduğu diqqətə çatdırılıb.

Söhbətdə ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm və müsbət təsir imkanlarına malik parlamentlərarası əlaqələrin əhəmiyyəti qeyd olunub. Vurğulanıb ki, bu istiqamətdə əlaqələri daha da dərinləşdirmək baxımından qarşılıqlı səfərlər və dialoqu davam etdirmək çox vacibdir.

Görüş ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi ilə davam etdirilib.

❖ ❖ ❖

Mayın 1-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Moldova Respublikası Parlamentinin İqtisadiyyat, büdcə və maliyyə komitəsinin sədri Radu Marian ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, görüşdə Azərbaycan-Moldova münasibətlərindən bəhs edilib, dövlət başçılarının və hökumət rəsmilərinin qarşılıqlı səfərləri zamanı imzalanan sənədlərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsi üçün əsaslı hüquqi baza yaratdığı qeyd olunub. Parlamentlərimiz arasında əlaqələrin də uğurla inkişaf etdiyi və qanunvericilik sahəsində təcrübə mübadiləsinin önəmli olduğu, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların, habelə deputatların parlamentlərarası qurumlarda və beynəlxalq təşkilatlarda əməkdaşlığının mühüm əhəmiyyət daşıdığı bildirilib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 2 may, № 89.- S.6.